*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2024, № 2* *ISSN: 2663-2926*
*Səhifə: 13-19* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2024.2.13*

## JANR, STRUKTUR, FORMA

# Əruz vəznində təqti və onun təfilə ilə qarşılıqlı əlaqəsi
**(*II məqalə*)**

**Məmməd Əliyev**
Filologiya elmləri doktoru, professor
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

**Annotasiya.** Təqtini tətbiq etməkdən qabaq ifaçı təfilə, təfilənin ritmik strukturu, onun şeirdə funksiyası haqqında bitkin məlumata malik olmalıdır. Burada sözün orfoqrafik yazılışı, həmçinin orfoepiyasına ciddi əməl etmək lazımdır. Əks təqdirdə, şeirin ölçüsü nəzərdə tutulan ahəngi ödəyə bilməz. Təfilə bölüm vahidi, təqti isə misra ölçüsüdür. Onların qarşılıqlı əlaqəsi təfilənin çoxcəhətli funksiyasını üzə çıxarır.
**Açar sözlər:** təfilə, təqti, bölüm vahidi, ritm funksiyası

**Məqalə tarixçəsi:** göndərilib – 11.09.2024; qəbul edilib – 25.09.2024

# The interaction between the taqti and tafila in the aruz meter
**(*The Second article*)**

**Mammad Aliyev**
Doctor of Philological Sciences, Professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS

**Abstract.** *Taqti* (word division, similar to a meter in tonic versification) in metrics is the foundational element of the word section when creating rhythm in *aruz*. Before applying *taqti*, the performer of the verse must understand the main features of *aruz's* meter, including the necessary knowledge of the rhythmic structure of *tefile*, its properties, features, and functions within the verse.
**Keywords:** tefile, taqti, units of measurement, rhythmic functions

**Article history:** received – 11.09.2024; accepted − 25.09.2024

## Giriş / *Introduction*

Əruzşünaslıqda təqti hərəkətin (ifanın) başlanması və ya icrası deməkdir. Ahəng və avazın müəyyənləşdirilib ifasında bünövrə daşıdır.

Təfilə bölümlə, təqti misra ilə əlaqədardır.

Təfilə təqtinin misrada müəyyənləşməsində əsas göstərici olub, təqtinin dəqiq fəaliyyətinə və icrasına yol göstərir.

Təfilə-bölüm qarşılıqlı münasibətlərini və bunların əsasında vəzncə təfilə-bölüm tarazlığını öyrənmədən misranın təqtisini dəqiq yerinə yetirmək olmaz. Çünki təqti misra qəlibini təfilə-bölümlə birlikdə təsdiq edir.

Qəliblə düzgün reallaşan hər hansı bir misraya təqtini tətbiq etmək olar və bu qarşılıqlı əlaqə asanlıqla yerinə yetirilir.

Hər hansı bir qəlibdə reallaşan misranın düzgün oxunması (avazı) zamanı ifaçı çalışır ki, təfilələr arasında olan məcburi fasilələrə tam şəkildə əməl olunsun.

Təqti elə bir mürəkkəb funksiyanı ödəyir ki, o, təfilələrlə bölümlərin arasında olan əlaqəyə, növ ölçüsünün reallığına, növün milli əruzda olan bəhrlərin mövcudluğuna, bütünlükdə, əruz elmi sisteminə əsaslanır. Əgər təqtinin vəzifəsi həm də ölçüdə reallaşan misranın və ya beytin doğru-yanlışlığını təyin etməkdirsə, onu uğurla başa çatdırıb yerinə yetirirsə bu ifaçının mürəkkəb işin öhdəsindən gəlməsi deməkdir. Çünki təqtinin tətbiqi həm fiziki-fizioloji (nəfəsçəkmə), həm də sintaktik (sözün bütöv qalması, hissələrə bölünməsi, hətta bir səs-hərf kimi qalması kimi məcburi hala düşməsi və s.) vəziyyətlə bağlıdır.

## Əsas hissə / *Main part*

Misranın təqti edilməsi qədər onun təqti üçün hazırlanması da əsas şərtdir. Bu işin düzgün aparılması üçün əruz vəzninin həm nəzəri, həm də əməli cəhətinin əsası biliyə – təfilənin ahəng və melodiya yaradan səs elementlərinə, qəlib-bölüm cəhətlərinə diqqət yetirmək lazımdır, çünki nəzəri və praktik vəhdətdə olan misra qəlibinə malikdir.

Əruzla yazılmış misranın təqti edilməsi ona görə mürəkkəbdir ki, təqtidə misranın hansı ölçüdə və bu ölçünün hansı növünün variantında yazıldığı tam məlum olmalıdır. Bu isə həmin misranın dəqiq ölçüsü hesab edilir. Təfilə bölümə, növ ölçüsü misraya, təqti bölümlərə, ifaçı isə şeirin vəzninə (düzgün, dəqiq uzunluğuna) nəzarət edir. Təqti əruz vəzninin mürəkkəb elmi sistemində təfilə-bölüm tarazlığında praktikləşə bilməlidir. Bu prosesdə (tətbiqolunmada) təqti özünü iki şəkildə göstərir:

a) Misradan asılı olaraq onun təqtisində sadə əməliyyat aparmaqla;
b) Misranın təqtisində çoxgedişli əməliyyat aparmaqla.

Sadə əməliyyatda:

Yox yalan söylədim, hərzə söylədim (Ə.Nəbati).

Bu misra mütədarik bəhrinin əsas növ qəlibindədir, təqti üçün əsasən elə də hazırlıq işi tələb etmir və asanlıqla misra üzərində bölümləmə aparılır.

fAilün fəil, fAilün fəil
Yox yalan dedim, hərzə söylədim.

Başqa bir nümunə:

Şad yaşamaq  səyidə  qeyrətdədir (M.Ə.Sabir)
müftəilün  müftəilün  fAilün

Bu misrada ikinci bölümü təqtiyə hazırlamaq lazımdır. “Səy” sözünə kor heca (yazıda görünməyən oxunuşda eşidilən hecaya deyilir) artırılır.

| | | |
|---|---|---|
| Müftə’ilün | müftə’ilün | fA’ilün |
| Şad yaşamaq | səyidə qey | rətdədir. |

Kor heca (i – hecanın aid olduğu hərfin yuxarı hissəsində yazılır) lazımi bölümlərə yerindəcə artırılması, təqti fəaliyyətə daxil ola bilmir.

Təqti əməliyyatında aşağıdakı nümunədə ilk əvvəl iştirak edən misradır. Misranı ona görə birinci qəbul edirik ki, misra ölçü vahididir. Bizə əruz elmi sistemində çoxsaylı növ və misra qəlibləri içərisində misranın ölçüsünü və bu ölçünün hansı bəhrə aid olmasını müəyyənləşdirmək lazımdır.

Misra:

Gər desəm sərv sənə sərvdə rəftar olmaz – Bu misrada 7 imla vahidi: 1) gər; 2) desəm; 3) sərv; 4) sənə; 5) sərvdə; 6) rəftar; 7) olmaz, – dörd vəzn vahidi vardır.

| I | II | III | IV |
|---|---|---|---|
| fA'ilAtün | fə'ilAtün | fə'ilAtün | fə'lan |
| Gər desəm sər v sənə sər | vdə rəfta | rolmaz | |

Misranın vəzncə düzgün oxunması üçün onu yeddi parçaya deyil, dörd hissəyə: 1) gər desəm sər; 2) v[i] sənə sər; 3) v'də rəfta; 4) rolmaz bölməliyik. Musiqi duyumu ilə misranın ölçüsünü müəyyən edirik. Bu anda II bölümdə "v" samiti kor heca qəbul etməli – həmçinin III bölümdə "v" samiti və rəftar ikiqat uzun heca olduğu üçün "r" samiti IV bölümə keçib "rolmaz" olmalıdır. Bu təqtidən sonra misranın doğru ölçüsü alınır [1, s.364].

Təqti, doğru ölçülü misra üzrə hərəkət edirsə, iki vəziyyətlə qarşılaşırıq: həm təfilələrin səsləndirilməsi, həm də misranı təşkil edən sözlərin təfilələr üzrə düzgün paylanması.

Təqti şeirin ölçüsündən sonra tətbiq olunur. O da öz növbəsində misraya tətbiq ediləndən sonra şeirin vəznini – ölçüsünü təsdiq edir. Təqti misra ölçüsünü təsdiq etsə də, misra ölçüsündən sonra praktikləşə bilir, fəaliyyətə cəlb edilir.

Təfilə bölümə, ölçü misraya, təqti bölümlərə, əruzçu isə şeirin vəzninə nəzarət edir. Bu, mürəkkəb qarşılıqlı əməliyyatdır.

Misra təqti olunarkən bir başqa cəhətə də diqqət vermək lazım gəlir; bu əruzlu şeirimizdə misrada sözlərin yazılışıdır. Təfilə-bölüm münasibətlərində söz və sözlərin (bütöv və ya parçalanmış şəkildə) vəznə görə imlası (orfoqrafiya) əsasdır. Əgər bu, dilimizin müasir orfoqrafiyasına uyğun gəlmirsə, az və ya çox dəyişiklik verilibsə, ona diqqətlə yanaşmaq, sözün təfilə öhdəçiliyini düzgün qorumaq lazımdır ki, sonrakı prosesdə təqtinin fəaliyyətinə imkan yaransın.

Bəzən əruz vəznində yazılmış şeirin düzgün imlası düzgün orfoqrafik təlimə uyğun gəlmir.

Sözün imlasını necə gəldi yazmaq və ya onda fonetik dəyişiklik etmək təqtinin bölümlərlə işini çətinləşdirir.

Şair vəznlə işləyir, o, vəznə tabedir, belə halda sözdə müəyyən məcburi dəyişiklik baş verir. Bunu səhv hesab edənlər əruz qaydalarını bilmədiklərindən, sözü düzgün yazılışda qəbul edirlər.

Məsələn:

Qış getdi yenə bahar gəldi (Ş.İ.Xətai)

Bu misranı təqti etmək, təfilə-bölüm ödənişini, vəznin doğru-yanlışlığını yoxlamaqda çətinlik yaranır. Təqtinin hərəkəti dayanır.

| | | |
|---|---|---|
| məf'Ulü | məfA'ilün | fəUlü |
| Qış getdi | yenə | bahar gəldi |

Bu anda irəli getmək, misranın vəznini tamamlamaq mümkün deyil və bu səbəbdən misranı təqti etmək olmur.

Ş.İ.Xətai "bahar" sözünü "bəhar" şəklində işlətmişdir. Belə halda birinci heca "bə", "ba"-yə çevrilir və "bahar" "bəhar" olur. "har" ikiqat hecaya dönür və "r" kor heca olan "i"-ni qəbul edərək üçüncü təfilə-bölüm münasibəti vəznə görə tənləşir:

| | | |
|---|---|---|
| məf'Ulü | məfA'ilün | fə'Ulü |
| Qış getdi | yenə bəha | rgəldi. |

Bu misranın təqtisi vəznə görə düzgün (doğru) hesab edilir, daha doğrusu, təqti bölümlərin düzgün aparılmasını təsdiqləyir.

“bahar” sözü əruz vəznində “bəhar” şəklində daha uyğun və yatımlıdır.

Başqa bir nümunə:

Yox hasilim bu fəsldə bağü bahardən
Mühdiqulu Vəfa.

| | | | |
|---|---|---|---|
| Məf’Ulü | fA’ilAtü | məfA’İlü | fA’ilün |
| Yox hasi | lim bu fəs | | |

“fəsl” sözü ikiqat uzunhecalıdır, şərtə görə “l”-ə kor heca “i”-ni artırıb “fəsl” sözünü ikiqat uzunluqdan çıxarırıq: fəsli:

fA’ilAtü
lim bu fəsl$^{i}$

Üçüncü və dördüncü bölümdə də ödəniş çətinliyi yaranır. Əgər “bahar” sözünü olduğu şəkildə saxlasaq, IV bölüm tam ödənilməyəcək, təqti fəaliyyətini saxlayacaq və təqtinin tələbinə dördüncü bölüm har$^{i}$dən – fA’ilün şəklinə düşəcək:

| | |
|---|---|
| məfA’İlün | fA’ilün |
| də bağü bə | har$^{i}$dən |

Təqtinin fəaliyyətini misra üzərində izləyək:

| | | | |
|---|---|---|---|
| məf’Ulu | fA’ilAtü | məfA’İlü | fA’ilün |
| Yox hasi | lim bu fəsli | də bağü bə | haridən |

Aydın olur ki, təqti həm təfilə-bölüm tarazlığına, həm də bütövlükdə misraya ciddi nəzarət edir. Bunu biz təqtinin yazılı şəkildə təqdimində gördük.

Təqti işini nədən başlayır? Ölçüdən, yoxsa ölçüdə reallaşan misradan? Cavabı bəllidir: Əvvəl qəlibdən, sonra misradan.

Əruz termini kimi təqtinin də əruz elmi sistemində mövqeyini müəyyənləşdirərkən onu bölümləmə ifadəsindən ayırırıq, çünki təqti qəlib növ ünsürü, təfilə isə bölüm vahididir. Təfilə tək bölümlə qarşılıqlı münasibətdə fəaliyyət göstərir, təqti isə bütövlükdə misranın ölçüsünü, bəhrini aşkar edir.

Təqti bütövlükdə əruz şeir texnikası ilə əlaqədar olub əruz sistemini əhatə edir.

Əgər təfilə-bölüm cütlüyü əruz elmi sistemində ilkin öyrənmə mərhələsindədirsə, təqti isə bu sistemdə son, yekunlaşdırıcı yerdə dayanır. Bununla ölçünün onun hansı bəhrə və bu bəhrin hansı növünə aid olması müəyyənləşir.

Təqtinin tətbiqi icraçının bu işdə böyük səy və bacarığından, təcrübəsindən çox asılıdır.

Təfilənin funksiyası daha genişmiqyaslıdır. Onun fəaliyyət sahəsi, əhatə dairəsi, (Şeir texnikasındakı ritmyaratma funksiyası) məcbur edir ki, deyilənləri bir daha ümumiləşdirək.

Əruz vəzninin texnologiyası çox zəngin və mürəkkəbdir. Onun bir mürəkkəbliyi də hər bir terminin ayrılıqda özünün mürəkkəb olmasıdır. Azərbaycan əruzundakı hər bir təfilənin fərqli fonetik quruluşu və ahəngi var. Bu təfilələrin bir mürəkkəbliyi də onlarda müxtəlif tip hecaların iştirakıdır.

Sayı 270-i keçən təfilələrin quruluşu müxtəlifdir; ikitəfiləli qəliblər, üçtəfiləli qəliblər, dördtəfiləli qəliblər, az işləyən qəliblər, çox işləyən qəliblər və s.

On iki bəhrin 74 növü vardır ki, onlar Azərbaycan əruzunu bir tamlıq kimi təmsil edir.

Bəhrlər də qəliblərin müəyyən qruplaşmasından yaranır. Onların sıralanması müəyyən şərtlərə əsaslanır.

Bu üç termin (təfilə, qəlib, bəhr) bir-biri ilə sıx bağlıdır. Əruzu öyrənmək üçün bu terminlərin öyrənilməsi istər-istəməz müəyyən ardıcıllıqda gözlənilməlidir: təfilə-qəlib-bəhr. Əruzu öyrənmək və onu öyrətmək üçün hər üç termini həm nəzəri, həm də əməli şəkildə öyrənmək məcburidir.

Hər bir təfilənin öz adı vardır.

1. Təfilənin zəruri adı, yəni təfiləyə ilkin ad verilməlidir: fA'İIAtün təfiləsi, fə'Ulün təfiləsi, məf'Ulü təfiləsi, müftə'ilün təfiləsi və s.
2. Təfilənin bəhrə daxil olduğu adı: məfA'ilün-həzəc təfiləsi fA'ilAtün-rəməl təfiləsi; müstəf'ilün-rəcəz təfiləsi; mütəfA'ilün-kamil təfiləsi və s.
3. Bəhrdə aparıcı roluna görə təfilələr: məfA'ilün-müctəs təfiləsi; məf'Ulü-müzare təfiləsi; fA'ilün- mütədarik təfiləsi adlanır.
4. Təfilənin qəlibdə həmcins şəkildə iştirakına görə: məfA'ilün, fə'ilAtün, müftə'ilün, fA'ilAtün, təfiləsini dörd cür oxuya bilərik: 1. Bu, təfilənin adıdır;

2. Bu təfilə həzəc təfiləsidir; 3. Aparıcılığına görə müctəs təfiləsidir; 4. Yalnız həzəcdə həmcins təfilə kimi iştirak edir.

Təfilə təklikdə söz, söz birləşməsi və ya misranın parçalanmış hissəsini əhatə edir ki, bu da şeirdə misranın ölçüsünü əhatə etmir.

Qeyri-işlək təfilələr olduğu kimi qeyri-işlək qəliblər də var (həmçinin bəhrlər və bəhrin növləri də). Ola bilər ki, qeyri-işlək qəlib işlək təfilədən düzəlsin. Bəs nə üçün qeyri-işlək qəlibdir? Ona görə ki, bu qəlib şerimizdə həddindən az işlənib. Məs: fA'ilAtün fəal, dolğun rəməl təfiləsidir, ancaq rəməlin birinci növü-fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilAtün şerimizdə seyrək görünür. Qazi Bürhanəddin, Nəsimi, Füzuli, S.Ə.Şirvani, M.Ə.Sabir kimi əruzda yazan şairlərimizdə belə bir qəlibə rast gəlinmir.

Təfilə var xoşavazlıdır (məfA'İIün, fA'ilAtün və s.), təfilə var sürətlidir (fə'Ulün), təfilə var ağır oxunur (mütəfA'ilün, müstəf'ilün. Sürətli təfilə öz-özü ilə birləşərək həmcins şəkildə qəlibi daha da sürətləndirir. (mütəqaribdə: fə'Ulün fə'Ulün fə'Ulün fə'Ulün)

Təfilələr (ən azı ikisi) qəliblərdə öz fəaliyyətini başa çatdırır, şeir misrasının ölçüsünü mümkün olan fəaliyyəti ilə qəlibləşdirir. Misranın ölçüsü təfilə ilə başlayır, təfilə ilə qurtarır. Ona görə qəlib misradakı sözlərə uyğun gələn (bu, əslində qarşılıqlı olur) təfilələrin mənalı, bədii birləşməsidir. Bu bədii-estetik birləşmə poetik qəlibdir, filoloji göstəricidir. Şeir təfilələrin misrada reallaşan birləşməsindən yaranan qəliblə başlayır və təyin olunan qəliblə də başa çatdırılır.

Təfilələrin fəaliyyətini və əhatə dairəsini bölümün son hecasında da müşahidə etmək maraq doğurur. Son bölümün son hecasında təfilənin fəaliyyəti daha genişdir. Burada təfilə ilə bölümdəki sözün son hecası bir-birini nəzəri və əməli cəhətdən tənzimləyir, bu bir növ əruz təfilələrinin variantlarını əmələ gətirir, belə halda onların sayı çoxalır, təqti zamanı çəkən və çəkilənin tam bərabərliyi dəqiq yerinə yetirilir. Son bölümə düşən təfilənin üç variantı əmələ gəlir. Belə ki, həzəc növləri 15-dir, hər birinin son bölümündə sözün açıq, qapalı, ikiqat uzun heca ilə qurtarmasından asılı olaraq təfilə üç şəkil alır: məfA'İlün, məfA'İlü, məfA'İlAn. Ona görə həzəcin 15 növünün hər birinin üç variantı var ki, bu da 45 variant edir.

Təfilənin misrada fəaliyyət sahəsinin və əhatə dairəsinin mürəkkəb əməliyyatı rəməl və xəfifdədir. Əgər həzəcdə, müzaredə, müctəsdə, rəcəzdə, münsərihdə, səridə, kamildə, müqtəzəbdə, mütəqaribdə, mütədarikdə son bölümdə variantlar alınırsa, rəməl və xəfifdə ilk və son bölümdə təfiləyə nəzarət etmək lazım gəlir, təfiləni dəqiq seçmək tələb olunur. Buradan aydın olur ki, təfilənin sayının çoxluğunu yaradan son bölümdəki sözün son hecasıdır.

1. ***Həzəc təfilələri*** (ən aktiv təfilələr)

Əyani olaraq Əkrəmi modeli ilə təqdim edirik:

1. məfA'İlün - qələm dildil
2. məfA'ilün - qələm nüdil
3. məfA'İlü - qələm pərdə
4. məf'Ulü - dil pərdə

5. fə'Ulün - qələmdil

**2. *Rəməl təfilələri*** (ən aktiv təfilələr)

1. fA'ilAtün - dil qələmdil
2. fə'ilAtün - nü vədildil
3. fA'ilün - dil qələm
4. fə'ilün - nü vədil

Misranı sözlər, qəlibi təfilələr təşkil edir. Qəlib ayrı-ayrı bölümlərdən ibarətdir. Bölümləri isə təfilələr nizamlayır. Düzgün qəlibə salınmış misranın təfilələr əsasında bölümlənməsində təfiləyə misradan bölüm şəklində ona uyğun hissə, pay düşür. Bu prosesdə təfilə apardığı əməliyyatı dəqiq yerinə yetirir.

Qəlibdə misranı təşkil edən sözlərin rabitəsi və ölçülməsində ən başlıca işi, əlbəttə, təfilə görür. Artıq təfiləyə necə yanaşmaq, onunla iş prinsipi ilə müəyyən qədər məlumat var və yavaş-yavaş təfilədən – misra bölümündən qəlibə – misra ölçüsünə keçirik;

İşi əsasən tamamlamaq üçün adi anadilli sözlərimizi vəzncə təfiləyə bərabərləşdirmək lazımdır. Bu praktik əhəmiyyət daşıyaraq sonrakı proses üçün lazımdır.

47 təfilədən bir neçə təfiləni adi anadilli sözün müxtəlif şəkildə ölçülməsinə tətbiq edək:

1. məfA'İIün - gəlir'lərmiş
2. məfA'İiü - gəlir'miş o
3. məfA'ilün - gəlir'dilər
4. məf'Ulün - gəl'mişdim
5. məf'Ulü - gəl'mişdi
6. mütəfA'ilün - gələcək'sə gəl
7. müftə'ilün - gəldi'gəlir
8. fA'ilAtün - gəl'misənmiş
9. fA'ilAtü- gəl'misənmi
10. fA'ilün- gəl'mişəm
11. fə'ilAtün - gə'ləcəkmiş
12. fə'Ulün -gə'lirdim
13. fə'il, fə'ül -gə'lir

## Nəticə / *Conclusion*

Göründüyü kimi, təfilələrlə sözlərin vəzncə bərabərləşdirilməsi o qədər də çətin deyil. Bu vəzncə bərabərləşmədə təfilədə uzun və qısa hecaların düzülüşünə, adi sözün həmin hecaların düzülüşünə uyğunlaşdırılmasıdır. Belə halda təfilənin ahəngi ilə bu ahəngə uyğunlaşmış sözlərin ahəngi təxminən üst-üstə düşür [4,s.57].

## Ədəbiyyat / *References*

1. Əkrəm Cəfər. Əruzun nəzəri əsasları və Azərbaycan əruzu. Bakı, Elm 1977, 415 s.
2. Əliyev M. Ədəbiyyat nəzəriyyəsi, Bakı, Elm və Təhsil, 2012. 480 s.
3. Əliyev M. Təfilə və onun ritm funksiyası, Bakı, Elm və Təhsil, 2023.
4. Əliyev M., Ə.Hüseynli. Əruzu necə öyrətməli. Bakı, Tural, 2004, 168 s.
5. Quliyev T. Əruz və qafiyəşünaslıq tarixi Bakı, 2013.

## Взаимодействие тагты и тафила в метре аруз
## (*2-я статья*)

**Маммад Алиев**
Доктор филологических наук, профессор
Институт литературы имени Низами Гянджеви НАНА

**Резюме.** Тагты (разделение слов, аналогичное метру в тонической версификации) в метрике является основным элементом словесной секции при создании ритма в аруз. Перед применением тақти исполнитель стиха должен понимать основные особенности метра аруз, включая необходимые знания о ритмической структуре тафила, его свойствах, особенностях и функциях в стихотворении.
**Ключевые слова**: тефиле, тагты, единицы измерения, ритмические функции